

# Abidələrimizin bərpası

### onların qorunaraq gələcək nəsillərə ötürülməsi deməkdir

## İkinci məqalə

*"YUNESKO"-nun İşlək Prinsipləri adlı 139 maddədən ibarət və "Dünya İrsi Embleminin istifadəsi üzrə Rəhbər Başlanğıclar və Prinsiplər" adlı sənədlər tərcümə edilmişdir.*

*Şöbə tərəfindən bərpa işlərinin 2008-ci ilə kimi prespektiv planı, "Tarix və mədəniyyət abidələrinin qorunması müfəttişliyi"nin nizamnaməsi, "Tarix və mədəniyyət abidələrindən kino-film, klip və foto çəkilişləri zamanı istifadəyə görə icazə ödənişi" haqqında qərar layihəsi hazırlanmışdır.*

2002-ci ildə Baş idarədə yeni qoruqların yaradılması məqsədi ilə təkliflər hazırlanmış və bunun nəticəsi olaraq Azərbaycan Respublikası mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) nazirinin əmrinə əsasən Qax rayonunda İlusu, Dəvəçi rayonunda Şabran tarix-mədəniyyət, Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda Gəmiqaya tarix-bədii və Şərur rayonunda Arpaçay tarix-mədəniyyət qoruqları yaradılmışdır.

2002-ci ildə İran İslam Respublikasında "Çiy kərpicdən abidələrin bərpası" mövzusunda keçirilən tədbirdə şöbənin əməkdaşı Ramin Əliyev və "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutunun əməkdaşı Ədalət Məmmədov iştirak etmişlər.

Mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) Nazirliyi YUNESKO konvensiyasının 30-cu ildönümünə və Birləşmiş Millətlər Təşkilatı tərəfindən 2002-ci ilin "Mədəni İrs ili" elan edilməsi ilə əlaqədar tədbirlərin keçirilməsini qərara almış və bu tədbirlərin keçirilməsi Mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) Nazirliyinin 08.07.2002-ci tarixli 237 saylı əmri ilə Baş idarəyə tapşırılmışdır. Tədbirlərlə əlaqədar "Şirvanşahlar Sarayı Kompleksi" Dövlət tarix-memarlıq qoruq muzeyində, Qobustan Dövlət tarix-bədii, Gəncə Dövlət tarix-mədəniyyət, Şəki və Ordubad Dövlət tarix-memarlıq qoruqlarında "Avropa-Ümumi İrs" günləri Baş idarə tərəfindən təşkil edilmiş və onun əməkdaşlarının iştirakı ilə keçirilmişdir. Respublikada keçirilən bu Beynəlxalq tədbir ilə əlaqədar S.Bəhlulzadə adına sərgi salonunda "Azərbaycan abidələri" adlı sərginin iclası olmuş, "Muzey mərkəzi" binasında Beynəlxalq Elmi-metodiki Konfrans keçirilmişdir. Konfransın işində Türkiyə Respublikasından və Rusiya Federasiyasından dəvət olunmuş qonaqlar iştirak etmiş və tədbir kütləvi informasiya vasitələri ilə ətraflı təbliğ olunmuşdur.

Baş idarə tərəfindən noyabr ayında Azərbaycan Respublikasında Professional bərpaçılığın yaradılmasının 50 illiyi münasibəti ilə respublikamızın görkəmli memarlarının, tarixçilərinin, mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə elmi-metodiki konfrans keçirilmişdir.

2002-ci ildə Bakı şəhərinin, respublika rayonlarının icra hakimiyyəti başçılarına abidələrdə mühafizə tədbirlərinin görülməsi məqsədi ilə "Mühafizə müqavilələrinin" bağlanması haqqında təkrarən məktublar göndərilmişdir.

Hər il 18 aprel tarixdə beynəlxalq abidələr və tarixi yerlər, sentyabr ayında isə Ümumavropa irs günləri münasibəti ilə respublika ərazisində olan tarix-mədəniyyət qoruqlarında ənənəvi tədbirlər həyata keçirilir. Bu tədbirlər zamanı abidələrə aid sərgilər təşkil olunur, məruzələr dinlənilir, abidə ərazilərində iməciliklər keçirilir, abadlıq işləri aparılır.

Mədəniyyət işçilərinin Respublika hazırlıq və ixtisasartırma kurslarında 2003-cü ilin oktyabr ayında 18 abidə mühafizəçisinin iştirakı təmin olunmuş, Baş idarə əməkdaşları mühafizəçilər ilə məşğələlər keçirmiş, onların Bakı şəhərinin ərazisində yerləşən abidələrə və muzeylərə ekskursiyalarını təşkil etmişlər. Abidə mühafizəçiləri üçün təşkil olunan kurslar hər il keçirilməyə başlanmışdır.

Dövlət mühafizəsinə götürülmüş tarix və mədəniyyət abidələrinin texniki vəziyyətinə baxışlar keçirilmiş, abidə ərazilərində qeyri-qanuni yenidənqurma, qapı-pəncərələrin açılması və rekonstruksiya işlərinin aparılması faktları aşkar edilmiş, onların qanunamüvafiq həll olunması üçün rayon icra hakimiyyətlərinə 18 məktub ilə 22 abidə haqqında müraciətlər olmuşdur.

Abidələrin mövcudluğunu və texniki vəziyyətlərini müəyyən etmək məqsədi ilə Baş idarə tərəfindən respublika ərazisində dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinin inventarizasiyası işlərinin aparılmasına başlanılmışdır. Bu məqsədlə Bakı şəhərində və Abşeron yarımadasında olan abidələrin bir qisminin inventarlaşdırılması həyata keçirilmiş, onların mövcud vəziyyətini əks etdirən sənədləri və fotoları hazırlanmışdır. Respublikanın Masallı, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında bu işlər başa çatdırılmışdır.

YUNESKO-ya müraciətimiz əsasında cari ilin avqust ayında YUNESKO eksperti, İtaliya mütəxəssisi cənab Anjelo Fossati Bakıda olmuşdur. Bu səfər zamanı, 14 gün ərzində İdarənin, "Qobustan" qoruğunun və "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutunun mütəxəssisləri, "Qobustan qoruğunun" idarəolunma planının hazırlanması məqsədi ilə onunla sıx əməkdaşlıq etmişlər.

"Qobustan qoruğunun" Dünya İrs Siyahısına salınması ilə əlaqədar İCOMOS eksperti, Fransa mütəxəssisi xanım Karola Frits noyabr ayında Bakıya səfər etmiş, bu səfər zamanı ona yaxından köməklik edilmişdir.

Abidələrin pasportlaşdırılması məqsədi ilə artıq bir çox ölkələrin pasport nümunələri müzakirə edilmiş və onlardan istifadə edilməklə yeni forması layihə



***Abidələrin mühafizəsi tədbirlərini həyata keçirmək məqsədi ilə 2000-2005-ci il ərzində tarix və mədəniyyət abidələrindən istifadə edən 625 hüquqi və fiziki şəxslər ilə mühafizə müqavilələri bağlanmış, bu işləri canlandırmaq məqsədi ilə rayon icra hakimiyyətləri başçılarına, mənzil-kommunal idarələri rəislərinə məktublar göndərilmişdir.***

***Şöbənin əməkdaşları tərəfindən Qala tarix-etnoqrafiya, Qobustan tarix-bədii, Nardaran tarix-mədəniyyət qoruqlarının, İsmayıllı rayonundakı Lahıc və Basqal tarix-mədəniyyət, Qazax rayonundakı "Avey", Gəncə tarix-memarlıq, Naxçıvan Muxtar Respublikasındakı Ordubad və "Gülüstan" tarix-mədəniyyət qoruqlarının fəaliyyəti yoxlanılmış və ümumi hesabat hazırlanmışdır.***

şəklində hazırlanmışdır.

Azərbaycan xalqının zəngin maddi mədəniyyət nümunələrini və mənəvi dəyərlərini təcəssüm etdirən və respublikada ilk dəfə olaraq "Dünya Mədəni İrs" siyahısına daxil edilən İçərişəhər tarix-memarlıq qoruğunun bərpası, qorunması, tədqiqi və təbliği ilə bağlı işlərin həyata keçirilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərində İçərişəhər tarix-memarlıq qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamında nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar Mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) Nazirliyi 2003-cü ilin aprel ayında Bakı şəhərində YUNESKO ekspertlərini cəlb etməklə Beynəlxalq Elmi-praktiki Konfrans keçirmiş, qoruqda yaranmış problemlərin həlli üçün çıxış yolları axtarılmış, konfransda beynəlxalq təşkilatlardan dəvət olunmuş mütəxəssislər öz fikir və təkliflərini bildirmişlər.

Qeyd etmək lazımdır ki, Mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) Nazirliyində İçərişəhərin qorunmasına yönəldilmiş sənədlər: qoruğun uzunmüddətli qorunması, konservasiyası və bərpası ilə bağlı konsepsiya və fəaliyyət proqramının layihələri, qoruğun idarəolunmasının beynəlxalq standartların tələblərinə uyğun olaraq qurulması ilə bağlı təkliflər, yeni əsasnamənin layihəsi hazırlanmış və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

İçərişəhərin baş planının hazırlanması ilə əlaqədar İCCROM-un eksperti, Litva mütəxəssisi cənab Q.Rutkauskas 10-16 noyabr tarixlərində Bakıda olmuş və Mədəni İrsin Qorurnması Layihəsi işçi qrupunun, "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutunun, Baş idarənin əməkdaşları ilə müzakirələr aparılmışdır. O, Vilnüs şəhərinin tarixi hissəsinin qorunması sahəsində aparılan işlər haqqında ətraflı məlumat vermiş və təcrübəsilə bölüşmüşdür.

Respublika ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə Dəvəçi rayonundakı dünya əhəmiyyətli "Çıraqqala" tarixi abidələr kompleksi və həmin rayonun Şahnəzərli kəndi yaxınlığında yerləşən orta əsrlərə aid "Şabran şəhəri" abidələri qoruq elan edilmişdir. Bununla əlaqədar Mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) Nazirliyi, Milli Elmlər Akademiyası və Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən yeni yaranmış qoruqların sərhədləri müəyyən olunmuş, onların Əsasnaməsi və ştat cədvəli hazırlanmışdır.

2003-cü ildə Azərbaycan Respublikası Mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) Nazirliyinin kollegiyasında "2000-2002-ci illərdə Elmi-Bərpa istehsalat idarələrinin fəaliyyəti barədə" və "Azərbaycan Respublikasında dövlət tərəfindən qorunan abidələrin mühafizəsi tədbirləri haqqında" məsələlər müzakirə edilmiş, hər iki kollegiya qərarının icrasının təmin olunması ilə bağlı tədbirlərin həyata keçirilməsinə başlanmışdır.

Ümumiyyətlə bu illər ərzində idarənin əməkdaşları qəza vəziyyətində olan abidələrə baxışlar keçirmiş və onların dağılmağının qarşısını almaq üçün müxtəlif instansiyalara müraciətlər etmişdir.

Hesabat dövrü ərzində idarənin əməkdaşları bir sıra beynəlxalq tədbirlərdə iştirak etmişlər. "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutunun memarı S.Əmiraslanova 2002-ci ilin iyul ayında YUNESKO tərəfindən Polşada gənc memarlar üçün keçirilən seminarda iştirak etmişdir. Həmin institutun direktoru C.Qiyasi sentyabr və oktyabr aylarında müvafiq olaraq YUNESKO tərəfindən keçirilən seminarda (Moskva) və elmi konfransda (İran) iştirak etmişdir. "Qobustan" qoruğunun direktoru M.Fərəcova sentyabr ayında qayaüstü təsvirlərin qorunması ilə əlaqədar Qazaxıstanda YUNESKO tərəfindən keçirilən seminarda, şöbə müdiri R.Bayramov 2004-cü ilin mart ayında Parisdə keçirilən Dünya İrs Bürosunun 6-cı fövqəladə toplantısında iştirak etmiş və Roma şəhərində İCCROM-un baş ofisində təkmilləşdirmə məqsədilə 5 gün İCCROM-un əməkdaşları ilə işləmişdir.

Bu səfər zamanı İCCROM-da Azərbaycanın tarix və mədəniyyət abidələri haqqında mühazirə oxumuş, memarlıq, arxeoloji və şəhərsalma abidələrinin idarəolunması ilə bağlı İCCROM-da aparılan işlər ilə yaxından tanış olmuşdur.

2003-cü ilin oktyabr ayının 15-17 tarixlərində Strasburq şəhərində Avropa Şurasının Mədəni İrsin qorunması sahəsində keçirilən toplantısında R.Bayramov ekspert kimi iştirak etmişdir.

2003-cü ilin 19-21 noyabr tarixlərində İCCROM-un Baş Assambleyasının 23-cü qurultayı keçirilmişdir. Azərbaycan bu beynəlxalq təşkilata 2001-ci ildən üzv olduğundan ilk dəfə olaraq İCCROM-un Ali Məclisinin toplantısında iştirak etmişdir. Azərbaycanı təmsil edən nümayəndə R.Bayramov 4 il müddətinə İCCROM-un Şura üzvü seçilmişdir.

Şöbə Azərbaycan Respublikası Mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) Nazirliyinin 2004-cü il üçün təsdiq olunmuş tədbirlər planına uyğun cari ildə dövlət mühafizəsinə götürülmüş tarix və mədəniyyət abidələrinin invertarlaşması işlərini davam etdirmişdir. Respublikanın 21 rayonunda işlər başa çatdırılmış, 20 rayonunda işlər qismən görülmüşdür. Cari ildə yeni aşkar olunmuş tarix və mədəniyyət abidələrinin siyahısı üzərində işlər davam etdirilmiş və aşkar olunmuş 66 abidələrin siyahısına Balakən rayonunda tapılmış 4 memarlıq abidəsi daxil edilmişdir.

Abidələrin qorunması ilə bağlı Fövqəladə Hallar üzrə Dövlət Komissiyası-

na, Bakı şəhər İcra Hakimiyyətinə, rayon icra hakimiyyətlərinə, bələdiyyələrə, tarix-mədəniyyət qoruqlarına, digər hökumət və qeyri-hökumət təşkilatlarına rəsmi müraciət olunaraq abidələrdə yaranmış qəza vəziyyətlərinin aradan qaldırılması, onların görkəminin, daxili quruluşunun və memarlıq üslubunun pozulmasının qarşısının alınması tələb edilmişdir.

Tarix və mədəniyyət qoruqları üçün beynəlxalq və respublika əhəmiyyətli qanunlara və normativ sənədlərə uyğun müasir tələblərə cavab verən əsasnamələrin layihələri hazırlanmışdır.

Azərbaycan Respublikası Mədəniyyət (Mədəniyyət və Turizm - Y.V.) Nazirinin 22.01.2004-cü il tarixli 19 saylı əmri ilə Hacıqabul rayonunun ərazisindəki ölkə əhəmiyyətli memarlıq abidəsi olan Pir Hüseyn xanəgahının ərazisi tarix-mədəniyyət qoruğu elan edilmişdir. Qoruğun sərhədləri müəyyən edilmiş, ştat cədvəli və əsasnaməsi hazırlanmışdır. Hacıqabul rayonunda abidələrin qorunmasına həsr olunmuş elmi-praktiki konfrans keçirilmişdir.

Respublika Xarici İşlər Nazirliyindən daxil olan məktublar əsasında II Dünya Müharibəsinin 60 illiyi münasibəti ilə 2005-ci ildə Berlin şəhərində keçiriləcək sərgidə nümayiş olunması məqsədilə Böyük Vətən müharibəsində həlak olmuş həmvətənlərimizin xatirəsinə ucaldılmış abidələrin fotoşəkilləri toplanmışdır. Qısa müddət ərzində 30 rayondan 67 foto alınmış və onlar Xarici İşlər Nazirliyinə göndərilmişdir.

Hesabat dövründə "Bakı şəhərində və Abşeron yarımadasında yerləşən tarix və mədəniyyət abidələrinin qorunmasının vəziyyəti haqqında" arayış və bu mövzuda Mədəniyyət (Mədəniyyət və Turizm - Y.V.) Nazirliyinin Kollegiyasında müzakirə olunacaq qərar layihəsi hazırlanmışdır.

Bütün rayon mədəniyyət şöbələrinə abidələrin üzərinə vurulacaq qoruma lövhələrinin nümunələri göndərilmiş və bu nümunələrə uyğun olaraq lövhələrin vurulması işlərini yerinə yetirmək şöbə müdirlərinə həvalə edilmişdir.

Şöbədə "Tarix və mədəniyyət abidələrinin qorunması və onlardan istifadə qaydalarının pozulmasına görə məsuliyyət haqqında təlimat" hazırlanmış və Respublika Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilmişdir. Bu Təlimat əsasında abidələrin qorunması və onlardan istifadə qaydalarını pozan şəxslərə qarşı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin maddələrində nəzərdə tutulmuş cəza tədbirlərinin görülməsi işlərinə başlanmışdır.

2004-cü ilin iyun ayında Avropa Şurasının "Cənubi Qafqaz regionunun Mədəni və Təbii İrs Proqramı" əsasında Azərbaycan Respublikası üzrə Proqram hazırlamaq məqsədi ilə Bakıya gəlmiş missiya Bakı şəhəri ərazisindəki tarix-mədəniyyət qoruqlarına və İsmayıllı rayonundakı Lahıc tarix-mədəniyyət qoruğuna səfər etmişlər.

2004-cü ilin oktyabr ayında Dünya İrs siyahısına daxil edilmiş İçərişəhər, Şirvanşahlar sarayı və Qız qalasının qorunmasına həsr olunmuş dəyirmi masa keçirilmişdir. YUNESKO-nun Dünya İrs Komitəsinin, İCCROM-un və Almaniyanın Dünya İrs Fondunun nümayəndələrinin iştirakı ilə keçirilmiş bu beynəlxalq tədbirdə respublikamızın yeganə dünya irs abidəsi olan İçərişəhərin qorunması, bərpası, tədqiqi və təbliği ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi və yaranmış vəziyyətdən çıxış yolları axtarılmışdır.

Tədbirdə iştirak edən YUNESKO-İCCROM-missiyasını Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri, YUNESKO-nun sülh məramlı səfiri Mehriban xanım Əliyeva qəbul etmiş, qoruqda yaranmış kritik vəziyyətdən çıxış yolları haqqında onlarla ətraflı fikir mübadiləsi etmişdir.

Bu tədbirdən sonra noyabr ayında Bakı şəhərində YUNESKO-nun dəstəyi ilə Mədəniyyət (Mədəniyyət və Turizm - Y.V.) Nazirliyi tərəfindən Qobustan Dövlət tarix-bədii qoruğuna həsr olunmuş "Bəşəriyyət üfüqündə dialoq" adlı Beynəlxalq seminar keçirilmiş və bu tədbirdə Norveçdən, qonşu Gürcüstandan, Qazaxıstandan və Dağıstandan gəlmiş görkəmli mütəxəssislər iştirak etmişlər. Seminarda Qobustanda, Abşeron yarımadasında, Kəlbəcər rayonunda və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında yerləşən "Gəmiqaya" abidələri haqqında məruzələr dinlənilmiş, video və sənədli filmlər nümayiş olunmuşdur.

Hər iki beynəlxalq tədbir respublika kütləvi informasiya vasitələri ilə geniş təbliğ olunmuşdur.

2004-cü ilin iyun ayında Rusiya Federasiyasının "Resma" firmasının təşəbbüsü ilə Ulan-Ude şəhərində MDB dövlətlərinin, həmçinin Latviya, Litva, Estoniya, Polşa və Fransa dövlətlərindən gəlmiş nümayəndələrin iştirakı ilə "Müasir şəraitdə tarix və mədəniyyət abidələrinin bərpasında problemlər" mövzusunda keçirilmiş beynəlxalq konfransda şöbənin müdir müavini Telman Kərimli iştirak etmiş, Azərbaycanda aparılan bərpa işləri haqqında, mövcud problemlərlə bağlı məruzə ilə çıxış etmişdir.

***2004-cü ilin may ayında Moskva şəhərində YUNESKO-nun "Mədəni İrsin Qorunması" layihəsi mövzusunda keçirilən seminarda şöbənin digər müdir müavini Malik Fətullayev iştirak etmişdir.***

***Şöbənin müdiri Rizvan Bayramov 2004-cü ildə mədəni irsin qorunmasına dair Roma, Suzo (Çin Xalq Respublikası) və Strasburqda keçirilən beynəlxalq seminar və konfranslarda iştirak etmişdir. Türksoy beynəlxalq təşkilatı nəzdində Türk mədəni irs qurumunun yaradılması haqqında şöbənin təklifi cari ildə keçirilən toplantıda müzakirə olunmuş və qəbul edilmişdir.***

***Yaşar VƏLİYEV***

## Ədəbiyyat


1. Z. Verdiyeva "Bir ömrə sığmayan arzular". B. "Şərq-Qərb", 1992.
2. T.Bünyadov "Əsrlərdən gələn səslər". B. Azərbaycan Dövlət Nəşriyyatı, 1993.
3. T.Bünyadov "Mərd qalalar, sərt qayalar". B. "Azərnəşr", 1986.
4. T.Bünyadov "Azərbaycan arxeoloji oçerkləri". B. "Azərnəşr", 1986.
5. "Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar toplusu". B. "Elm", 2001.
6. S.Qazıyev "Azərbaycanın qədim abidələri". B.1948.
7. R.Göyüşov "Azərbaycan arxeologiyası". B.1986.
8. N.Həsənzadə "Kulturologiya". B.2005.
9. V.Əsədov "Tariximiz, abidələrimiz, sərvətimiz". "Mədəni-maarif işi" jurnalı 2004 №2/3.
10. N.Rzayev "Əcdadlarımızın izi ilə". B.1992.
11. T.Əhmədov "Azərbaycanın şirsiz saxsı məmulatı". B.1969.
12. Ə.Tağıyev, Y.Əliyev "Kulturologiya". B.1997.
13. P.Bülbüloğlu "İnsan, zaman, mədəniyyət". "Mədəni-maarif işi" jurnalı 2001 №7/8.
14. Ə.Vəliyev "Abidələr:dünən, bu gün, sabah", "Ekspress" qəzeti, 4 sentyabr 2001-ci il.
15. B.Qubadoğlu "Mədəniyyət tarixi", II s. B. "Nasir", 2002.
16. V.Axundov "Abidələr mənəvi dayağımızdır". "Mədəni-maarif işi" jurnalı 1990 №1.